**“Seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında Təlimat”a dəyişikliklər edilməsinə dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

Seçki prosesinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qüvvədə olan müvafiq normativ xarakterli aktlarına dəyişikliyin edilməsi zərurəti yaranmışdır. Bununla əlaqədar Mərkəzi Seçki Komissiyasının müvafiq normativ xarakterli aktlarına dəyişiklik edilməli və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərməlidir.

Mərkəzi Seçki Komissiyası “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununun 75.1-ci və 75.2-ci maddələrinə, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə və Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 9 dekabr 2011-ci il tarixli 15/50 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən normativ xarakterli aktların hazırlanması və qəbul edilməsi Qaydaları”nın 3.4-cü bəndinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 4 iyul 2008-ci il tarixli 6/23-1 saylı Qərarı ilə təsdiq edilmiş “Seçki komissiyalarının seçici siyahıları ilə iş qaydaları haqqında Təlimat”ın 5.2-ci bəndinin 1-ci cümləsindən sonra aşağıdakı məzmun əlavə edilsin:

“Seçici siyahıları seçicilərin yaxşı görə biləcəyi və gediş-gəliş üçün asan olan yerlərdə məlumat lövhələrində yerləşdirilməlidir. Məlumatlar yerləşdirilərkən onların tam və hərtərəfli əks olunmasının mümkünlüyü, habelə hava və digər xarici təsirlər nəticəsində yaranan təhlükədən qorunması hökmən təmin edilməlidir. Məlumat lövhələrinin ölçüləri orada yerləşdirilməli olan seçici siyahılarının həcminə uyğun gəlməli, habelə həmin lövhələr təkrar istifadə üçün yararlı olmalıdır”.

2. Təlimat edilmiş dəyişikliklərlə birlikdə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün qanunla müəyyən edilmiş müddətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinə göndərilsin.

Sədr  Məzahir Pənahov

| | |
|---|---|
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |